BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2011*

UOT 902.911

# ƏCNƏBİ ALİMLƏRİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN NUMIZMATİKASI

**M.İ.VƏLİYEVA**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*aylin70@mail.ru*

*Azərbaycanın qədim tarixə malik olan maddi-mədəniyyət nümunələri dünya tərəfindən həmişə çox maraqla qarşılanmışdı. XIX əsrdən Avropada və Asiyada müxtəlif elm sahələrində olan inkişaf zamanı sikkə nümunələri də bu sıraya qatılmışdı, desək, yanılmarıq.*

*Rusiya imperiyasının işğalı altında olan Qafqazda əcnəbilərin davamlı olaraq həyata keçirdikləri xarici siyasətin prioritet sahələrindən biri də təsadüfən, yaxud qeyri-qanuni xəzinə axtarışları vaxtı əldə edilən pul nominalları olmuşdu.*

*Burada tarixi-xronoloji, tarixi-coğrafi məqamlar əsas götürülərək Rusiya,Fransa, Almaniya və s.kimi Avropa ölkələrində Azərbaycanın numizmatik materialları araşdırılmış, konkret olaraq mütəxəssislərin əsərlərində rast gəlinən sikkələr analiz edilmişdir.*

*Əsərdə bəzi əcnəbi alimlərin araşdırmalarına müraciət edilmiş, yeni və elmə məlum olmayan məlumatlar öyrənilmişdir.*

**Açar sözlər:** numizmatika, zərbxana, sikkə, dirhəm, zərb

Məlum tarixi-siyasi hadisələrin gedişində Azərbaycanın qədim əraziləri bəzi dövlətlərin maraq dairəsində olmuşdur. Bu, zəngin, coğrafi-strateji baxımdan çox əlverişli bir məkanda yerləşən ölkə uğrunda aparılan açıq və gizli mübarizə və müharibələrin sonunda Rusiya imperiyası qələbə çalmışdı. Bu səbəbdən də Azərbaycanın, nəinki, təbii sərvətləri, həmçinin, maddi-mədəniyyət nümunələri vəhşicəsinə talan edilərək, buradan dünya ölkələrinə daşınmışdı. XVII əsrdə Rusiyanın knyazlıqlarını zorla birləşdirərək, imperiya yaradan I Pyotrun qəbul etdiyi fərmanlara əsasən, Sankt-Peterburqda, Moskvada yaradılan muzeylərdə «Münskabinetlər» - yəni, sikkə məmulatlarının toplandıqları xüsusi fondlar yaradılır. Bunlardan Kunstkamera, sonralar Ermitaj kimi genişləndirilib, bu gün dünyanın ən zəngin muzeylərindən biri olan elmi mərkəzi xüsusi qeyd etmək lazımdır. Rusiyada Ermitaj muzeyi yaranmamışdan əvvəl imperiyada yayılan sikkələr Elmlər Akademiyasının Kunstkamera daxilindəki Münskabinetdə toplanılırdı (5, 138).

1745-ci ildə saxlanılan sikkələrin ilk kataloqu Q.Y.Ker və H.Krusius tərəfindən çap olunmuşdu. Zaman keçdikcə Ermitaj bir çox parametrlərdən birinci yeri əldə etmişdi. Bunun sələfləri sırasında 1818-ci ildə X.D.Frenin Asiya muzeyinə rəhbərliyə keçməsi ilə Şərq sikkələrinin bir yerdə cəmləşməsini göstərmək olar.

1842-ildən B.A.Dornun bu şöbəyə daxil olması ilə Şərq kolleksiyası daha da mükəmməl işlənilmiş və onun şəxsi təşəbbüsüylə zənginləşmişdi. Xüsusi qeyd etmək lazımdı ki, X.D.Frenin tərtib etdiyi müsəlman sikkələrinin kataloqu B.A.Dorn tərəfindən davam etdirilmişdi. Qraf A.İ.Ostermanın kataloqu S.İ.Şoduar tərəfindən zənginləşdirilmişdi. Bu kataloqlara əsasən, 1864-cü ildə Asiya muzeyində 22 mindən artıq müsəlman ölkələrinin sikkələri toplanmışdı.

1879-cu ildə M.İ.Brosse Şərq kolleksiyasının Ermitajda yaradılması tarixi haqqındakı məqalələrində digər sikkələrlə yanaşı, göstərilən ildə daxil olan Şərq pul kolleksiyaları sırasında A.Y.İtaliyskinin sikkələrini də göstərir. Bu sikkələrin içərisində 232 ədəd Nijni Novqoroddan aşkar edilən Şərq sikkələri "tatar pulları" haqqında məlumat vardı. 1843-cü ildə M.İ.Brosse Ermitajın arxivində mövcud olan qeyri-adi sikkə nümunələri haqqında məlumat verir. Maraqlıdır ki, bu sikkələrin Peterburq yaxınlığından İsapskoe Celo deyilən yerdən aşkar olunduğu qeyd olunur (1, p. 330).

Hər 3 hakimiyyət nümayəndələri yığmış olduqları sikkələri dəqiq öyrənmək üçün Avropa ölkələrindən tanınmış mütəxəssisləri Rusiyaya dəvət etmiş, onlar üçün bütün lazımi həyat şəraiti yaratmışlar. Bunlardan alman mənşəli K. Fren, baron V. Tizenqauzen və A.K.Markovun adlarını xüsusi qeyd etmək lazımdır.

Bu illərdə Kazanda təhsil üzrə müvəkkil S.Y.Razumovski O.Q.Tixsenə müraciət edərək oranın universitetində Şərq dilləri kafedrasında olan professor vakansiyasına bir nəfər göndərməsini xahiş etmişdir. Bu hadisə Qazan Universitetinin açıldığı zaman 1804-cü ildə baş verdi. Q.Y.Tixsen özünün ən istedadlı tələbəsi X. M. Freni məsləhət gördü.

Əvvəlcə Şərq sikkələri ilə tanış olan alim Asiya muzeyini yaratmağı təklif edir. 1818-1826-cı illərdə X.M.Fren muzeyin yeganə əməkdaşı olaraq 24 il burada çalışmışdır. Onun gördüyü işlərin həcmi ağlagəlməzdir. Belə ki, rəsmi statistik məlumatlara görə, o, 3 milyondan artıq sikkələri ayırmış, xoronoloji cəhətdən yerləşdirmiş, təyin etmişdir.

X.M.Frenin elmi yaradıcılığında numizmatika əsas yer tuturdu. Yaşadığı illərdə onu «Şərq numizmatikasının knyazı» kimi qəbul edirdilər. Belə ki, o, həqiqətən Rusiyada Şərq numizmatikası elminin əsasını qoymuşdu (5, 140).

Müəllif tərtib etdiyi kataloqlarda, o cümlədən «Resencio numarum Muhammedanorum ementa ad resensionem numoreum Muhammedana» Azərbaycanın Təbriz, Şamaxı, Quştaspi, Şabran, Ərdəbil, Xoy, Bakı, Van, İrbil, Əlincə, Astara, Sultaniyyə şəhərlərində Şeyx Uveysin, Cəlal-əd-Din Hüseynin, Qiyas-əd Din Əhmədin adından zərb edilən gümüş dirhəmlər barəsində, həmçinin Dərbənddə Əmir Teymurun, Caqatay hökmdarı Sultan Mahmudun, Qaraqoyunlu hökmdarı Pir Budağın, Qara Yusifin, İsgəndərin və Cahan-şahın adlarından zərb edilən 6 ədəd gümüş dirhəmlərin numizmatik təsvirini vermişdir».

Bu və digər məsələlərin düzgün izahına görə, elm aləmində L.L.Ekkel antik dövrün numizmatikasının əsasını qoyan, X.M.Fren isə müsəlman numizmatikasının «fundament»ini yaradan görkəmli şəxsiyyətlər hesab edilirlər.

X.M.Frenin Şərq numizmatikasında əsas rolu Cucilər dövrünün sikkəşünaslığının banisi olmasıdır.

İlk dəfə X.M.Fren numizmatik materiallara əsaslanaraq Qızıl Orda xanlarının adlarını, hakimiyyət illərini öyrənmiş və Şərq numizmatikasının bir hissəsi kimi təsnifat işlərini dəqiqləşdirmişdir. Onun oxuyub, təyin etdiyi bəzi hökmdarlar haqqında, ümumiyyətlə, yazılı məlumatlar belə yox səviyyəsindədir. Nəticədə, alim doqquz yüzə yaxın Qızıl Orda dövlətinin sikkə tipini təyin etmişdi. Onun elmi yaradıcılığı yalnız Cucilər dövrünün sikkə materiallarının öyrənilməsi ilə tamamlanmamışdı. Ümumiyyətlə, X.M.Frenin yaradıcılığı janr etibarilə üç qrupa bölünür:

1) bir və ya bir neçə yaxın qruplara aid olan sikkələr haqqında monoqrafiya xarakterli elmi işlər;

2) muzey tərəfindən əldə edilən kolleksiyaların və onların içərisindəki ən maraqlı sikkələrin təyin edilməsi;

3) ayri-ayrı dəfinələrin öyrənilməsi.

Bununla da milliyyətcə alman olan, amma həyatını Rusiyada yaşayan X.M.Fren XVIII əsr–XIX əsrin əvvəllərində Rusiyada numizmatika elminin əsasını qoyan alimlərdən olaraq Şərq numizmatikası sırasında Azərbaycan tarixinin bəzi mühüm məsələlərinin öyrənilməsində kifayət qədər əməyi olan insandır.

Qeyd etmək lazımdır ki, ilk dəfə rus şərqşünas – alimi A.Y.Şmidt 1824-cü ildə Hülaki dövlətinin hökmdarlarından olan Qazan xanın adını pullar üzərində həm uyğur, həm də ərəb dilində oxumuşdu. Ondan sonra K.M.Fren A.Y.Şmidtin köməkliyilə uyğur dilindəki yazıları araşdıraraq 1826-cı ildə yazdığı kitabı çap etdirmişdi. Hər iki müəllifin əsərlərində əsas faktoloji materiallar Azərbaycanın ərazisindən aşkar edilən sikkə materiallarıdır.

Rus numizmatlarından V.Q.Tizenqauzen Şərq numizmatikasına, o cümlədən Azərbaycan ərazisindən aşkar edilən və imperiyanın mərkəzi muzeylərinin əsas eksponatları sırasında yerləşdirilən sikkə materiallarına xüsusi diqqət yetirmişdi. Rusiyanın ali zadəgan cəmiyyətində baron kimi tanınan V.Q.Tizenqauzen elmi araşdırmaları vaxtı daha çox rus numizmatikası ilə məşğul olsa da, zaman-zaman ayrı-ayrı varlı şəxslərin pul kolleksiyalarına müraciət edərək Azərbaycan üçün dəyərli olan bəzi elmi araşdırmalar aparmışdı. Bu sıradan onun 1888-ci ildə «A.V.Komarovun yeni Şərq sikkə kolleksiyası» və 1896-cı il «N.P.Lineviçin yeni numizmatik materiallar» adlı məqalələri yenə də Hülakilər-Elxanilər dövrünün sikkələrinin yeni tapıntılarına həsr olunmuşdu (5, 138-140).

Bundan başqa, V.Q.Tizenqauzen Ukrayna ərazisində arxeoloji qazıntı işləri həyata keçirilən zaman yunan şəhərləri və skif kurqanlarının qazılmasında birbaşa iştirak etmişdir. Onun numizmatika sahəsində olan əsərləri Şərqə həsr olunmuşdu. Bu əsərlərdən, xüsusilə «Şərq xilafətinin sikkələri» adlı kitabında Qızıl Orda xanlıqlarının pul nominalları araşdırılmışdı.

Azərbaycan numizmatika elmində analoji mis sikkələr haqqında müəy-

yən mülahizələr mövcuddur. Abbasilərə aid ilk mis pul – fels xəlif Əbu Cəfərin (754-775-ci illər) hakimiyyəti illərində Bərdədə zərb edilmişdi (15, 64).

Bərdədə üzərində "Allah" kəlamı yazılmış dirhəmlər də zərb olunmuşdu (17, 112).

Orta Asiyanın mis sikkə nominalları üzrə mütəxəssis olan Y.A.Davıdoviç hələ keçən əsrdə əsərlərində dəfələrlə qeyd etmişdi ki, Əmir Teymur işğal etdiyi ölkələrdə yalnız gümüşdən zərb etdirdiyi təngə və mirini tamhüquqlu tədavül vasitəsi kimi qəbul etmişdi (9, 115).

Qızıl Orda dövlətinin pul dövriyyəsi haqqında bir çox problemlər ortaya çıxarıldıqdan sonra rus alimlərindən V.V.Qriqoryev 1850-ci ildə, P.S.Savelyev 1858-ci ildə yenidən və daha geniş numizmatik materiallarla bu məsələyə qayıtmışlar. XX əsrdə çox mürəkkəb, ziddiyyətli pul sisteminə malik olan bu monqol dövlətinin sikkələrini öyrənən məşhur arxeoloq-numizmat Q.Fyodorov-Davıdov tərəfindən əsası qoyulan xüsusi məktəb bu işi davam etdirmişdir.

1896-cı ildə A.K.Markovun «İnventarnıy kataloq muslimanskix monet İmperatorskoqo Ermitaja" adlı fundamental əsəri çap olunmuşdu. Alim kataloqu tərtib edərkən vaxtilə B.Dornun Kəsranilər sülaləsinin geneologiyasına dörd yeni hökmdar adı əlavə etmişdi. Bunlar I Axsitan ibn Mənuçəhr, II Fəriburz ibn Afridun, III Fəriburz ibn Gərşəsb və II Axsitan ibn Fəriburz idi.

XIX əsrin 50-60-cı illərində Qafqazda hərbi qulluqda yüksək vəzifədə olan İ.A.Bartolomey (1813-1870) oradan Asiya muzeyinə 600 ədəd sikkə göndərmişdi (2; 3, p. 7).

Qısamüddətli tarixə malik olan sikkəşünaslıq digər elm sahələrinə nisbətən bu respublikalarda dövlət səviyyəsində öyrənilməyə başlanıldı (4, p. 15.) Cənubi Qafqaz ölkələrindən biri olan Gürcüstan da bu inkişafda istisna təşkil etmirdi.

Gürcü numizmatik abidələrinin öyrənilməsinə hələ XVIII əsrdə başlanılmışdı. İlk belə sikkələr Adler tərəfindən 1782-ci ildə digər Şərq sikkələri sırasında çap olunmuşdu.

Ölkəmizdə numizmatikanın əsasını qoyan rus alimi Yevgeni Aleksandroviç Paxomov elmi fəaliyyətinə ilk dəfə Tiflisdə başlamış, sonralar «Qırmızı professorlar» sırasında Bakıya göndərilmiş, 1920-ci ildə yaradılan Azərbaycan Dövlət Tarix Muzeyinin açılması ilə numizmatika şöbəsinin və fondunun yaradıcısı olmuşdu. Artıq 1926-cı ildən başlayaraq görkəmli alim «Azərbaycanın və Qafqazın digər respublikaları, bölgələrinin pul dəfinələri» adlı 9 cilddən ibarət fundamental əsər yazmışdı (13, 20) .

Gürcüstanda Y.A.Paxomovdan başqa, numizmatika elminin inkişafında bir çox görkəmli alimlər fəaliyyət göstərmişlər. Bunlardan A.N.Zoqraf, D.Q.Kapanadze, K.V.Qollenko, İ.O.Şengeliya, S.İ.Makalatiya, O.D.Lordkipanidze, M.İ.İnadze, S.M.Şamba, İ.L.Çalaqani, Q.F.Dundua, T.S.Kuteliya və bir çox adlarını çəkmədiyimiz alimləri misal göstərmək olar (14, 45).

A.N.Zoqrafin əsərlərində bütün Qafqaz ərazisində antik dövrdə zərb olunan və digər ölkələrdən daxil edilən sikkələri eyniləşdirmək barəsində fikirlər

bu günə qədər numizmatika elmində öz dəyərini itirməmişdi (11, 12).

Gürcü alimlərindən M.P.İnadzenin Kolxidada stabil yerli didraxma adlı pul nominalının – b.e.ə. VI əsrdən mövcudluğu ehtimalı heç bir faktoloji materiallarla özünü doğrultmadığından yuxarıda göstərilən xronoloji çərçivə bütövlükdə Qafqaza aid edilir.

XX əsrdə yaşayıb-yaratmış gürcü alimi Q.F.Dunduanın 1987-ci ildə Tiflisdə çap etdirdiyi «Antik Gürcüstanın numizmatikası» adlı monoqrafiyasında ilk dəfə təsviri verilən pul dəfinələri və ayrı-ayrı muzey materialları sırasında Gürcüstanda bu dövrə aid olub, zərb olunan Roma pulları müqayisədə üstünlük təşkil edir (6, 333-335).

Keçən əsrin 30-40-cı illərində gürcü-numizmat alimlərindən biri olan İ.L.Calaqani Y.A.Poxomovun tələbəsi olaraq bir müddət Bakıda yaşamış və işləmişdir. Görünür, bu səbəbdən alim bütün elmi yaradıcılığında Azərbaycan numizmatikasının bir çox problemlərinə xüsusi yer ayırmışdı. Onun elmi əsərlərində, əsasən, erkən orta əsrlər dövrünə aid olan Gürcüstan ərazisində aşkar edilən sikkə və sikkə dəfinələri araşdırılarkən əsas araşdırma obyektlərindən Azərbaycan-Gürcüstan iqtisadi əlaqələridir (10, 20-25 ).

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, dünya numizmatika elmində «Atropatena» adlı zərbxananın pulları haqqında ilk dəfə XIX əsrdə alman alimlərindən A.D.Mortmann, XX əsrin 60-cı illərində E.Volker və R.Göbl öz əsərlərində qısa məlumatlar vermişlər.

Gürcüstanın görkəmli numizmat-alimlərindən S.M.Şamba, əsasən, Abxaziyadan aşkar edilən sikkə və sikkə dəfinələrini araşdırmışdı. Abxaziyanın qədim gürcü torpaqları olduğunu nəzərə alsaq, sözsüz ki, buradan aşkar edilən dəfinələrin bir qisminin Azərbaycanla əlaqəsi aydın bir faktdır. Belə ki, müəllif 1987-ci ildə çap etdirdiyi «Abxaziya ərazisində pul dövriyyəsi (b.e.ə. V – eramızın XIII əsrləri)» monoqrafiya xarakterli əsərində araşdırdığımız mövzu üzrə aşağıdakı fikirlərini qeyd edir. Şambanın həm Azərbaycan, həm də bütövlükdə Qafqazın tarixi üçün digər maraqlı bir fikri Sasanilərin hakimiyyəti zamanı burada yerli zərbxanaların bəzilərinin mərkəzi hakimiyyətin razılığı ilə fəaliyyət göstərməsi barəsindədir. «Cənubi Qafqazda aşkar edilən saysız-hesabsız Sasani pullarının kəmiyyəti buradakı yerli zərbxanaların mövcudluğu haqqında mülahizə yürütməyə imkan yaradır» (7, 14-17).

D.Q.Kapanadze isə belə sikkələri gürcü mənşəli hesab edərək, onların Tiflisdə deyil, hansısa bir gürcü əyalətində zərb olunduğu fikrini irəli sürürdü (12, 112).

D.M.Lenq Amerikanın numizmatika cəmiyyətində saxlanılan, elmə 2 variantda məlum olan belə sikkələri gürcü ərəb bənzətmələrinə, daha dəqiq desək, Abbasi dirhəmlərinə aid edib.

Başqa bir numizmat-alim, professor M.M.Mesxia isə bu cür faktiki materialların – yəni, Kufi sikkələrinin Tiflisin müstəqil olduğu illərdə zərb olunduğu qənaətinə gəlir.

Dünya numizmatika elmində V.Dorn adlı alman aliminin Azərbaycanın

numizmatik materiallarının öyrənilməsində əvəzedilməz yeri vardır. Maraqlıdır ki, V.Dornun yuxarıda göstərilən elmi dərgilərdə demək olar ki, davamlı şəkildə Şərq ölkələrinin sikkə nümunələri və dəfinələri haqqında çox ciddi elmi əsərləri çap olunmuşdur. Onun dəyərli məqalələri, kataloqları sırasında Azərbaycanın Parfiyanın təsiri altında və Sasanilər imperiyasının tərkibində olduğu zaman sikkə nominalları haqqında olan işlərini xüsusilə qeyd etmək lazımdır.

M.R.Broome adlı müəllif sikkələrin üzərində olan «Tel-Aras»ın Naxçıvan ərazisində Araz çayı yaxınlığında yerləşən bir zərbxana ilə eyni olduğunu həm toponimik, həm də onomastik təhlillə sübut edir.

XX əsrin sonlarında bəzi farsdilli elmi ədəbiyyatlarda Azərbaycan numizmatikasının problemləri müəyyən qədər araşdırılmışdır. Araşdırdığımız məsələ zaman-zaman ayrı-ayrı elmi məqalələrdə öyrənilməsə də, Seyid Camal Təbatəbainin «İslam sikkələri» (Elxanilər və Qurqanilər dövrü) çoxcildli əsərinin I cildində müəyyən fikirlərə aydınlıq gətirilmişdi. S.C.Təbatəbai Azərbaycan şəhərlərinin bəzilərinin sikkə zərbini aydınlaşdıraraq elmə o qədər də məlum olmayan hökmdarların adından zərb edilən sikkələr haqqında geniş elmi məlumat vermişdi (16, 57).

Əcnəbi alimlərin əsərlərində Azərbaycan numizmatikası özünəməxsus yerlərdən birini tutubdur.

## ƏDƏBİYYAT


1. Brosset M. Collection numismatique orientale de L`Ermitaje İmp. 1852-1879 Melanges assiatiques tires du Bullietin de st. Petersbourq. V. VIII. 1880 . St.-Petersbourg, 210 p.
2. Bartholomaei I.A. Letteres numismatiques et archeologiques relatives a la Transcoucasie. St.-Petersbourg, 1859, London, 27 p.
3. Bartholomaei I.A. Letters numismatics. Bruselles, 1861, London, 12 p.
4. Berezine E. Catalogue des monnaies et des medalles du cabinet Numismatigue. Kazan, 1892, p. 20.
5. Vəliyeva M.İ. Rus alimlərinin əsərlərində Azərbaycan numizmatikası (K.Fren və V.Tizenqauzenin əsərlərinə əsasən) // Tarix və onun problemləri, 2010, №1-2, s. 138-147.
6. Vəliyeva M.İ. S.C.Təbatəbainin əsərlərində Azərbaycan numizmatikasının bəzi problemləri // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2010, №1, s. 156-161.
7. Vəliyeva M.İ. Xarici dövrü ədəbiyyatda Azərbaycan numizmatikası // Kültür Evreni, Ankara-Türkiyə, 2010, İSSN-1308-6197, s.206-213 (471 s.).
8. Vəliyeva M.İ. Xarici dövrü ədəbiyyatda Azərbaycan numizmatikası // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2010, №1, s. 227.
9. Давидович Е.А. Медные монеты Средней Азии XV-XVI веках. М.: Наука,1986, 298 с.
10. Джалагания И.Л. Монетные клады Грузии. Тбилиси: Мечниереба,1976, 72 с.
11. Зограф А.Н. Античные монеты // МИА СССР, 1951, № 6, Наука, 16 с.
12. Капанадзе Д.Г. Грузинская нумизматика. М., Тбилиси: Мечниереба, 1955, 310 с.
13. Пахомов Е.А. Монеты Азербайджана. Вып. IX; Баку: Наука, 1959, 90 с.
14. Пиркулийева Г.А. Медные монеты Азербайджана. Баку: Нафта-Пресс, 2007, 120 с.
15. Pirquliyeva Q.Ə. Numizmatikanın əsasları. Bakı: Nafta-Press, 2009, 168 s.
16. Təbatəbai S.C. İslam sikkələri (Elxanilər və Qurqanilər dövrü, fars dilində), Təbriz: Tehran, 1976, 242 s.
17. Hacıyev Q. Bərdə şəhəri. Coğrafi, siyasi və mədəni tarixi. Bakı: UniPrint, 2008, 250 s.

# АЗЕРБАЙДЖАНСКАЯ НУМИЗМАТИКА В ТРУДАХ ЗАРУБЕЖНЫХ УЧЕНЫХ

**М.И.ВЕЛИЕВА**

**РЕЗЮМЕ**

В течение XIX-XX столетий некоторые зарубежные ученые с мировыми именами в своих трудах касались и проблем азербайджанской нумизматики. Этот процесс в большей степени был связан с изучением мусульманских стран и их денежным обращением. В числе таких ученых следует особо отметить Х.Френа, В.Тизенгаузена, А.Маркова, И.Джалагания, Д.Г.Капанадзе, Р.Р.Фасмер, Т.С.Кутелия, С.Табатабаи, Г.Ф.Дундуа, А.С.Савельев, В.В.Григорьев, С.Бартолемей, Ф.Соре, С.Лев-Пул, Б.Дорн, С.С.Березин, А.Быков, В.Луконин, Х.Рабино, Ф.Д.Фейруз, Г.Й.Абрамишвили и многих других нумизматов.

Научные выводы этих ученых по сей день не потеряли своей актуальности. Зарубежные ученые внесли большой вклад в изучение нумизматических материалов, касающихся непосредственно истории нашей страны.

В заключение следует отметить, что настало время тщательно изучать труды этих ученых и, тем самым выявить основные моменты в их исследованиях.

**Ключевые слова**: нумизматика, монетный двор, монета, дирхем, чекан

# AZERBAIJAN NUMISMATICS IN FOREIGN REFERENCES

**M.I.VALIYEVA**

**SUMMARY**

Rich ancient material culture of Azerbaijan has always raised interest. Numismatics of the country has also been a focus of attention during the development of different branches of science in Europe and Asia since XIX century.

The works of such scientists as K.Fren, V.Tizenghauzen, A.Markov, İ.Jalaganiya, D.G.Kapanadzhe,T.S.Kuteliya, G.F.Dundua,P.P.Fasmer, A.S.Savelyev, V.V.Grigoryev, S.Bartolemey, F.Sore, S.Lev-Pul, B.Dorn, C.SBerezin, A.Bıkhov, V.Lukhonin, K.Rabino etc. are noteworthy in that respect.

**Key words**: numismatics, mint, moneta, dirham, striking